

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 173 (21.325)

4 sentyabr 2015-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiymətі 20 qəpik


## Rəsmi xronika



Sentyabrın 3-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakının Səbail rayonundakı 189-190 nömrəli orta məktəbdə həyata keçirilən təmir və yenidənqurma işlərindən sonrakı vəziyyətlə tanış olub.

Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov görülən işlərlə bağlı dövlətimizin başçısına məlumat verib.

Beş mərtəbədən ibarət məktəbdə 42 sinif otağı var.

189-190 nömrəli orta məktəbdə bütün sinif otaqları, fənn kabinetləri ən müasir tələblər səviyyəsində qurulub. Məktəb yüksək tələblərə cavab verən avadanlıq və müasir dərs ləvazimatları ilə təchiz edilib. Şagirdlərin nəzəri bilikləri laboratoriyalarda tətbiq etmələri üçün də zəruri avadanlıq quraşdırılıb.

Bildirilib ki, orta məktəbdə 1500 şagird təhsil alır.

Prezident İlham Əliyev məktəbin sinif otaqlarını gəzib, yaradılan şəraitlə tanış olub.

* * *

Sentyabrın 3-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev paytaxtın Yasamal rayonundakı Fizika, Riyaziyyat və İnformatika Təmayüllü Liseyin binasında təmir və yenidənqurma işlərindən sonra yaradılan şəraitlə tanış olub.

## Naxçıvan Muxtar Respublikası Ali Məclisində orden, medal və fəxri adların təqdimat mərasimi keçirilmişdir





Sentyabrın 3-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində "Şöhrət" və üçüncü dərəcəli "Vətənə xidmətə görə" ordenlərinin, "Tərəqqi", "Vətən uğrunda", "Hərbi xidmətlərə görə", "İgidliyə görə" və "Dövlət qulluğunda fərqlənməyə görə" medallarının, eləcə də Azərbaycan Respublikasının fəxri adlarının təqdimat mərasimi keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov tədbirdə çıxış edərək demişdir: Bu gün 38 nəfərə Azərbaycan Respublikasının orden, medal və fəxri adları təqdim olunur. Təqdimat mərasimi əlamətdar tarixdə – sentyabrın 3-də keçirilir. 1991-ci il sentyabrın 3-də ümummilli liderimiz Heydər Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilmişdir.



Ali Məclisin Sədri təltif olunanları ümummilli lider Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilməsinin ildönümü və dövlətimizin ali mükafatlarına layiq görülmələri münasibətilə təbrik edərək demişdir: 3 sentyabr Azərbaycan tarixində əlamətdar gündür. 1991-ci il sentyabrın 3-də ulu öndərimizin siyasi hakimiyyətə qayıdışı Azərbaycanın siyasi həyatında əlamətdar hadisə oldu. Həmin dövrdə ümummilli lider Heydər Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri kimi təkcə Naxçıvanın deyil, ümumilikdə Azərbaycanın taleyüklü məsələləri ilə bağlı Ali Məclisin sessiyalarında müzakirələr aparmış, mühüm qərarlar qəbul etmiş, ölkədə həyata keçirilən yanlış siyasətə qarşı etirazını bildirmişdir. Əgər 1991-ci il sentyabrın 3-də ulu öndər Heydər Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilməsəydi, bu gün müstəqil Azərbaycan da olmayacaqdı. Bu tarix Azərbaycana dövlətçilik, inkişaf, birlik, sabitlik və əmin-amanlıq gətirdi.

Ali Məclisin Sədri demişdir: Ölkəmizdə ulu öndərin müəyyənləşdirdiyi yolun inkişaf etdirilməsində yaxından iştirak edən, sədaqət göstərən insanların əməyi layiqincə qiymətləndirilir. Bu gün orden, medal və fəxri adlarla təltif olunanlar da ölkəmizin inkişafında fəaliyyətləri ilə fərqlənən şəxslərdir.

Ali Məclisin Sədri təltif olunanların bundan sonra da ölkəmizin inkişafına və dövlətçiliyimizin daha da möhkəmləndirilməsinə töhfə verəcəklərinə əminliyini bildirmiş, orden və medalların, Azərbaycan Respublikasının fəxri adlarının döş nişanlarını və vəsiqələrini təqdim etmişdir.

Təltif olunanlardan Güllər Məmmədova, Əsgər Əsgərov, Ərəstun Sadiqov, Hafizə Rzayeva, Namiq Əhmədov, Fəxrəddin İbrahimov, Səfər Quliyev, Bəxtiyar Mahmudov, Etibar Musayev, Cavid Səfərov, Musa Abdullayev, Elşad Həsənov, Asəf Quliyev, Fərrux Bayramov və Lalə Həsənova minnətdarlıq edərək demişlər ki, əlamətdar tarixi gündə dövlət mükafatlarına layiq görülmək böyük etimad olmaqla yanaşı, həm də ikiqat şərəfdir. Bu gün Azərbaycan və onun Naxçıvan Muxtar Respublikası inkişaf edir, tərəqqiyə qovuşur. Bütün bunların təməlində isə ulu öndər Heydər Əliyevin siyasi xəttinin uğurla davam etdirilməsi dayanır. Muxtar respublikada geniş quruculuq işləri aparılır, bütün yaşayış məntəqələri müasirləşdirilir, insanlar rahat yaşayırlar. Bu inkişaf hər bir sakini doğma torpağa daha sıx tellərlə bağlayır. Müxtəlif sahələrdə çalışan insanlar muxtar respublikanın bugünkü inkişafında pay sahibi olmaqdan qürur duyurlar.

Təltif olunanlar bundan sonra da ümummilli liderimizin siyasi xəttinə sadiq qalacaqlarını və onlara göstərilən etimadı doğruldacaqlarını bildirmişlər.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Əmək yarmarkalarında muxtar respublika üzrə 240 nəfər işə göndəriş alıb

İşaxtaran vətəndaşların müvafiq iş yerləri ilə təmin olunması məqsədilə ilin ikinci yarısında keçirilən, aktiv məşğulluq tədbirlərindən olan əmək yarmarkaları yekunlaşıb. Əmək yarmarkalarında, ümumilikdə, 240 nəfər işə göndəriş alıb. Bu barədə qəzetimizə məlumat Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidmətindən daxil olub.

Məlumatda o da bildirilib ki, ilk əmək yarmarkası Sədərək rayonunda keçirilib, yarmarkaya 6 təşkilatdan 69 boş iş yeri çıxarılıb, 11 nəfər işə göndəriş alıb. Kəngərli rayonundan isə 17 təşkilat 90 vakant iş yeri ilə yarmarkada iştirak edib, 18 nəfər ixtisasına uyğun işə göndəriş almaq imkanı qazanıb. Şahbuz rayonundan 9 qurum tərəfindən 120 iş yeri yarmarkaya təqdim edilib, 21 nəfər yarmarkada yaradılan imkanlardan maksimum şəkildə yararlana bilib. Culfa rayonunda keçirilən yarmarkada 20 təşkilat 169 boş yeri ilə yarmarkaya gələnlərin diqqətini çəkib. Bu yarmarkada 33 nəfər işaxtaran göndəriş alaraq işlə təmin olunub. Babək rayonunda 18 təşkilat 68 iş yerində işləmək imkanını işaxtaranlar üçün yaradıb, bu imkanlardan 32 nəfər yararlanıb.

Yarmarkaya çıxarılan boş iş yerlərinin sayına görə Ordubad rayonlar arasında üçüncü sırada qərarlaşıb. Belə ki, rayon üzrə əmək yarmarkasına 16 təşkilatdan 191 boş iş yeri çıxarılıb, 26 nəfər işə göndəriş alıb. Boş iş yerlərinin sayında Şərur rayonu ikinci yerdə qərarlaşıb. Rayonun 39 müəssisə və təşkilatından 297 boş iş yeri işaxtaranlara təqdim edilib, 41 nəfərə göndəriş verilib. Naxçıvan şəhəri 55 təşkilatla əmək yarmarkalarında iştirak edən təşkilatların sayına görə rekord nəticə göstərib, şəhərdə keçirilən əmək yarmarkasına 482 boş iş yeri çıxarılıb, 58 nəfər işə göndəriş alıb. İşə göndəriş alanların sayına görə Naxçıvan şəhəri birinci, Şərur rayonu ikinci, Culfa rayonu üçüncü, Babək rayonu dördüncü, Ordubad rayonu beşinci, Şahbuz rayonu altıncı, Kəngərli rayonu yeddinci, Sədərək rayonu səkkizinci sırada qərarlaşıb. Ümumilikdə, keçirilən əmək yarmarkalarına 180 təşkilatdan 1486 boş iş yeri çıxarılıb, 240 nəfər işaxtaran vətəndaşa müvafiq işlərə göndəriş verilib.

**Xəbərlər şöbəsi**

# Torpaqlardan səmərəli istifadə hər kəsin vətəndaşlıq borcudur

***Torpaq daşınmaz əmlakın xüsusi növü kimi tarixin bütün dövrlərində insan həyatı üçün xüsusi əhəmiyyət kəsb etmişdir. Torpaq insanlar üçün yaşayış, yurd yeri və qazanc mənbəyi olmuşdur. Torpağı olmayan xalqın öz müqəddəratını təyin etməsi mümkün deyil.***

Ölkəmizdə torpaq islahatlarının həyata keçirilməsi ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Ümummilli liderin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işlədiyi dövrdə bu sahədə mühüm qərarlar qəbul olunmuşdur. Ali Məclisin 1992-ci il aprelin 6-da keçirilən sessiyasında “Naxçıvan Muxtar Respublikasında zərərlə işləyən kolxoz və sovxozlar haqqında” və “Rentabelli işləyən kolxoz və sovxozların ictimai mal-qarasının özəlləşdirilməsi barədə təkliflər haqqında” qərarlar qəbul edilmiş, bununla da, Azərbaycanda torpaq islahatına ilk dəfə Naxçıvandan başlanılmışdır. 1993-2003-cü illərdə isə ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə ölkəmizdə bu istiqamətdə kompleks tədbirlər görülmüş, torpağa münasibətdə tarixi ədalət bərpa edilmiş, yeni torpaq münasibətləri və qanunvericilik bazası formalaşdırılmışdır. Azərbaycan Respublikası Konstitusiyasında torpaqla bağlı münasibətlərin hüquqi təminatının əsasları öz əksini tapmış, torpaq üzərində xalqın ümumi rifahına və dövlətin iqtisadi dirçəlişinə xidmət edən mülkiyyət formaları təsbit edilmişdir. Ölkəmizdə Torpaq Məcəlləsinin və “Torpaq islahatı haqqında” Azərbaycan Respublikasının Qanununun qəbul olunması isə torpaq islahatının aparılmasının hüquqi əsasları və qaydalarını müəyyənləşdirmişdir. Bütün bunlar aqrar sahədə yeni təsərrüfat münasibətlərinin formalaşmasına, torpaqdan səmərəli istifadəyə və ona qayğıkeş münasibətin formalaşmasına təkan vermişdir.

Naxçıvan Muxtar Respublikasının 205 kəndində torpaq islahatları aparılmış, 70 min 763 ailəyə və ya 241 min 46 nəfərə torpaq sahəsi verilmişdir. Muxtar respublika ərazisinin əhatə etdiyi 550 min 275 hektar torpaq sahəsinin 186 min 46 hektarı dövlət, 307 min 749 hektarı bələdiyyə mülkiyyətində saxlanılmış, 56 min 480 hektarı isə xüsusi mülkiyyətə verilmişdir. Bu da torpaq ehtiyatlarından istifadənin səmərəliliyini yüksəltməklə yanaşı, həm də əkinçiliyin inkişafına və məhsul bolluğunun yaranmasına səbəb olmuşdur.

Muxtar respublikada kənd təsərrüfatı məhsulları istehsalını artırmaq üçün bütün mülkiyyət növləri üzrə torpaq fondundan səmərəli və məqsədyönlü istifadə edilməsi qarşıda duran ən ümdə vəzifədir. Ona görə də kənd təsərrüfatının əsas istehsal vasitəsi olan torpağın istifadəsinə və mühafizəsinə dövlət nəzarətinin həyata keçirilməsi daim diqqət mərkəzində saxlanılır. Məqsəd torpaqlardan səmərəli istifadə edilməsi və onların mühafizəsi sahəsində torpaq qanunvericiliyinin tələblərinə bütün dövlət orqanlarının, bələdiyyələrin, hüquqi və fiziki şəxslərin əməl etməsini təmin etməkdən ibarətdir. Bu sahədə dövlət orqanlarının, torpaq mülkiyyətçilərinin, istifadəçilərinin və icarəçilərinin öhdəsinə müəyyən vəzifələr düşür. Bu vəzifələr Azərbaycan Respublikasının Torpaq Məcəlləsinin “Torpaqların mühafizəsi” bölməsində öz əksini tapmışdır. Məcəllənin 34-cü maddəsinin 5-ci bəndində göstərilir ki, torpaq mülkiyyətçiləri, istifadəçiləri və icarəçiləri torpağın münbitliyini və digər faydalı xassələrini qorumalı, bərpa etməli və yüksəltməli, torpaqların su və külək eroziyasından, sellərdən, su basmaqdan, bataqlaşmaqdan, təkrar şoranlaşma, kipləşmə və quraqlıqdan, istehsalat və məişət tullantılarından, kimyəvi və radioaktiv maddələrlə çirklənmədən, səhralaşmadan, kənd təsərrüfatı torpaqlarını kol-kos basmaqdan qorumalı, korlanmış torpaqları yenidən yararlı hala salmalıdırlar.

Dövlət tərəfindən torpaqların mühafizəsi, təyinatı üzrə istifadəsi, qeyri-qanuni istifadə hallarının qarşısının alınması məqsədilə mühafizə zonaları müəyyənləşdirilmişdir. Mühafizə və sanitariya zonaları qoruq torpaqlarının, yaşayış məntəqələrinin, sağlamlaşdırma zonalarının, çayların, bulaqların, su hövzələrinin, avtomobil və dəmir yollarının, elektrik xətlərinin ətrafında yaradılır və mühafizə zonaları ilə bağlı qanunvericiliyin tələblərinə müvafiq qurumların, fiziki və hüquqi şəxslərin əməl etməsi vacibdir. Çünki perspektiv inkişafın təmin edilməsi, gələcək nəsillərin məskunlaşması və əhalinin ərzaq tələbatının daha dolğun ödənilməsi bu gün sahib olduğumuz torpaqların necə mühafizə edilməsindən, ondan səmərəli istifadə səviyyəsindən asılıdır. Deməli, torpaqlardan səmərəli istifadə istiqamətində həyata keçirilən işlər təkcə bugünümüzə deyil, eləcə də gələcəyimizə hesablanmış iqtisadi və sosial siyasətin tərkib hissəsidir.

Təəssüf ki, torpaqlardan istifadə ilə bağlı muxtar respublikada dövlət səviyyəsində aparılan işlərə baxmayaraq, vətəndaşların torpağa münasibəti hələ də lazımi səviyyədə deyil. Belə ki, bəzi vətəndaşlar tərəfindən torpaqlardan təyinatı üzrə istifadə edilməməsi, özbaşına tikililərin aparılması, eləcə də torpaqların mühafizə zonalarında qanunsuz tikililərin inşa edilməsi hallarına hələ də rast gəlinir. Bəzən vətəndaşlar qanunvericiliyi ya bilərəkdən pozur, ya da onlar torpaqlardan istifadə, tikinti aparılması qaydaları, mühafizə zonaları ilə bağlı qadağa və tələblərdən məlumatsız olurlar. Torpaq mülkiyyətçiləri, istifadəçiləri və icarəçiləri bilməlidirlər ki, onlar torpaq sahələrinin özbaşına tutulması, torpaq sahələrində qanunsuz tikinti aparılması, torpaqların kateqoriyalarının qanunvericiliyə riayət edilmədən dəyişdirilməsi, torpaqların istehsalat və məişət tullantıları, kimyəvi və radioaktiv maddələrlə, habelə çirkab suları ilə çirkləndirilməsi, torpağın vəziyyətinə zərərli təsir göstərən obyektlərin layihələşdirilməsi, tikilməsi və istismara verilməsi, mülkiyyətdə və istifadədə olan torpaqların hüdudlarının, mərz nişanlarının məhv edilməsi, torpaqların dövlət uçotundan, qeydiyyatından gizlədilməsi, kəmiyyət və keyfiyyətinə dair məlumatların təhrif edilməsi kimi hərəkətlərin törədilməsində qanunvericilikdə müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar. Qeyd olunan əməllərin törədilməsi torpaqlardan qanuni istifadə, ona sahiblik və onun barəsində sərəncam vermənin qaydalarını pozur, torpaqların təyinatının dəyişməsinə səbəb olur.

Mülki qanunvericiliyə əsasən, daşınmaz əmlak kimi torpaq mülkiyyət hüququnun obyektidir. Torpaq sahəsinin ərazi sərhədləri daşınmaz əmlakın dövlət reyestrini həyata keçirən orqan tərəfindən mülkiyyətçiyə verilmiş sənədlər əsasında təyin edilir. Əgər qanunla ayrı qayda müəyyənləşdirilməyibsə, torpaq sahəsinə mülkiyyət hüququ həmin sahənin sərhədləri daxilində yerləşən səth qatına və qapalı sututarlara, meşələrə və bitkilərə də şamil edilir. Başqa məqsədlər üçün istifadəsinə yol verilməyən və ya məhdudiyyət qoyulan kənd təsərrüfatı və digər təyinatlı torpaq sahələri qanunla müəyyənləşdirilir. Dövlət və ya bələdiyyə mülkiyyətində olan torpaq sahəsindən istifadə hüququ fiziki və hüquqi şəxslərə torpaq sahələrini bu cür istifadəyə verməyə vəkil edilmiş dövlət orqanının və ya yerli özünüidarəetmə orqanının qərarına əsasən, qanunla müəyyənləşdirilmiş qaydada verilir.

Ölkəmizdə torpaqların özbaşına tutulması qanunla qadağan olunur. Ona görə də zəbt edilmiş torpaq sahələri qanunsuz istifadə zamanı çəkilən xərclərin əvəzi ödənilmədən aidiyyəti üzrə geri qaytarılmalıdır. Torpağın mülkiyyətçisinin və ya digər qanuni sahibinin razılığı, yaxud dövlət və bələdiyyə torpağının istifadəyə ayrılması haqqında qanunvericilikdə nəzərdə tutulmuş qaydada rəsmiləşdirilmiş sərəncam olmadan torpaq sahəsini ələ keçirmə torpaq sahəsini özbaşına tutma əməli hesab olunur. Bu zaman həmin şəxs qanunsuz ələ keçirdiyi torpaq sahəsinə faktiki sahiblik etməyə və ya ondan istifadə etməyə başlamış olur. Məsələn, torpaq sahəsinin hüdudlarını müəyyən edən hasar çəkir, orada tikinti və sair təsərrüfat-məişət təyinatlı fəaliyyəti həyata keçirməyə başlayır. Torpaq sahəsini özbaşına dəyişmə, şəxsin öz mülkiyyətində olan torpaq sahəsini başqa şəxsə məxsus torpaq sahəsi ilə onun razılığı olmadan əvəz etməsidir. Qanunvericiliyə müvafiq qaydada şəxsin istifadəsinə ayrılmış torpaq sahəsi əvəzinə başqa torpaq sahəsini ələ keçirmə də torpaq sahəsini özbaşına dəyişmə hesab edilir. Torpaq sahəsini özbaşına becərmə isə hər hansı torpaq sahəsində onun mülkiyyətçisinin və ya başqa qanuni sahibinin icazəsi olmadan bitkilərin əkilməsindən, onlara qulluq edilməsindən və ya onları yetişdirməsindən ibarət fəaliyyətdir. Bütün bunlar cinayət qanunvericiliyinə əsasən, məsuliyyətə səbəb olur. Belə ki, torpaq üzərində qanunla müəyyən edilmiş mülkiyyət hüququnu pozma, yəni torpaq sahəsini özbaşına tutma, dəyişdirmə və ya becərmə yüz manatdan beş yüz manatadək miqdarda cərimə və ya iki yüz qırx saatdan dörd yüz saatadək ictimai işlər və ya bir ilədək müddətə islah işləri ilə cəzalandırılır.

Bir məsələni xüsusilə diqqətə çatdıraq ki, torpaq sahələrində qanunsuz tikinti aparılması qanunvericiliklə qadağan olunur. İnzibati Xətalar Məcəlləsinə əsasən, müvafiq icra hakimiyyəti orqanlarının razılığı alınmadan binaların və qurğuların tikilməsinə görə fiziki şəxslər üç yüz manatdan altı yüz manatadək, vəzifəli şəxslər min beş yüz manatdan üç min manatadək, hüquqi şəxslər on beş min manatdan otuz min manatadək miqdarda cərimə edilirlər. Həmçinin torpaqların kateqoriyalarının qanunsuz dəyişdirilməsi də İnzibati Xətalar Məcəlləsində nəzərdə tutulmuş qaydada məsuliyyətə səbəb olur və buna görə fiziki şəxslər iyirmi manatdan iyirmi beş manatadək, vəzifəli şəxslər isə əlli manatdan yetmiş manatadək miqdarda cərimə edilirlər. Meliorasiya və irriqasiya sistemlərinin sıradan çıxarılmasına görə isə fiziki şəxslər on beş manatdan iyirmi manatadək, vəzifəli şəxslər qırx manatdan altmış manatadək miqdarda cərimə olunurlar.

İnzibati xətalar qanunvericiliyində torpaqların zibilləndirilməsi, istehsalat və məişət tullantıları ilə, kimyəvi və radioaktiv maddələrlə, habelə çirkab suları ilə çirkləndirilməsi, bakterial-parazitik və zərərli karantin orqanizmlərlə yoluxdurulmasına qarşı da müvafiq inzibati məsuliyyət tədbirləri nəzərdə tutulub. Belə ki, bu qanunazidd fəaliyyətlərdən hər hansı biri baş verdikdə fiziki şəxslər beş yüz manatdan səkkiz yüz manatadək, vəzifəli şəxslər iki min manatdan iki min beş yüz manatadək, hüquqi şəxslər yeddi min beş yüz manatdan on min manatadək məbləğdə cərimə edilirlər. Həmçinin torpaqların münbit qatının korlanmasına görə fiziki şəxslər altı yüz manatdan min manatadək, vəzifəli şəxslər iki min manatdan üç min manatadək, hüquqi şəxslər isə altı min manatdan səkkiz min manatadək miqdarda cərimə edilə bilər.

Fiziki və hüquqi şəxslərlə yanaşı, bələdiyyələr də mülkiyyətində olan torpaqların məqsədli təyinatı üzrə istifadə edilməsini təşkil etməli, dövriyyədən əsassız çıxarılmasına yol verməməli, onların mühafizəsi sahəsində qanunla müəyyən edilmiş qaydada tədbirlər görməli, əhalini məlumatlandırmalı, torpağın münbit qatının qorunması və artırılması istiqamətində maarifləndirici tədbirlər həyata keçirməlidirlər. Belə ki, bələdiyyə mülkiyyətində olan torpaqların istifadəsi və mühafizəsi sahəsində idarəçiliyin həyata keçirilməsi bələdiyyələrin müstəsna hüququdur.

Torpağın digər istehsal vasitələrindən ən böyük üstünlüyü ondadır ki, başqa istehsal vasitələri işləndikcə köhnəlib istehsal prosesindən çıxdığı halda, torpaq daim istehsal prosesində qala bilir və ondan səmərəli istifadə olunduqda daha da münbitləşir. Bunun üçün torpağın münbitliyini qorumaq ən başlıca şərtlərdən biridir. Çünki torpağın qorunması ətraf mühitin mühafizəsi deməkdir.

Naxçıvan Muxtar Respublikasının Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsi muxtar respublikada torpaqlardan istifadə və mühafizəsinə dövlət nəzarəti yönündə idarəçiliyin təkmilləşdirilməsinə, işlərin mərkəzləşmiş qaydada daha mütəşəkkil şəkildə aparılmasına diqqəti artırır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin torpaqlardan səmərəli istifadə ilə bağlı verdiyi tapşırıqların icrası kollektivin əsas fəaliyyət istiqamətidir. Bu məqsədlə torpaq müfəttişləri tərəfindən mütəmadi olaraq muxtar respublikanın bütün ərazilərində monitorinq və müşahidələr aparılır, aşkar edilmiş qanun pozuntuları ilə bağlı qanunvericiliyə uyğun olaraq tədbirlər həyata keçirilir.

Həyat və ruzi mənbəyi olan torpaqlardan səmərəli istifadə olunması, onların qorunması hər birimizin vətəndaşlıq borcudur. Bu gün ölkəmizdə, eləcə də muxtar respublikada bu istiqamətdə lazımi tədbirlər görülür. Xüsusilə əkinçiliyin inkişafı üçün dövlət proqramlarının qəbul olunması, torpaq mülkiyyətçilərinə maliyyə dəstəyinin göstərilməsi, güzəştli kreditlərin verilməsi, aqrolizinq xidmətinin təşkili torpaqlardan səmərəli istifadə və bol məhsul istehsalı üçün zəmin yaradır. Hər bir torpaq mülkiyyətçisi yaradılan şəraitdən düzgün bəhrələnməli, ölkəmizin tükənməz sərvəti olan torpaqlardan məqsədyönlü istifadə edərək həm öz güzəranını yaxşılaşdırmalı, həm də iqtisadi inkişafa öz töhfəsini verməlidir. Unutmamalıyıq ki, torpaqlardan təyinatına uyğun istifadə gələcək nəsillərin rahat yaşayışı üçün vacib şərtdir.

*Muxtar respublikamızın bütün torpaq mülkiyyətçilərini və istifadəçilərini bu qiymətli sərvətimizdən düzgün istifadə olunmasına və torpaq qanunvericiliyinin tələblərinə riayət etməyə çağırırıq.*

***Naxçıvan Muxtar Respublika Prokurorluğu,***
***Naxçıvan Muxtar Respublikasının Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsi***

## Oğlanqala kənd tam orta məktəbinin binası yenidən qurulur

Təhsilin dünya standartlarına uyğunlaşdırılmasında məktəb binalarının müasir tələblərə cavab verməsi, tədris müəssisələrində lazımi şəraitin yaradılması mühüm amillərdəndir. Bu səbəbdən də son illər muxtar respublikamızda məktəb tikintiləri geniş vüsət alıb. Hər il Naxçıvan şəhərində, rayon mərkəzlərində, kənd yaşayış məntəqələrində bir neçə yeni məktəb binası tikilir, yaxud mövcud binalar əsaslı yenidən qurularaq müəllim və şagirdlərin istifadəsinə verilir. Yeni tədris müəssisələri bütün zəruri avadanlıqlarla, kompüterlərlə, elektron lövhələrlə, fənn kabinələri və laboratoriyalar əyani vəsaitlərlə, kitabxanalar latın qrafikası ilə çap olunmuş dərs vəsaitləri və bədii ədəbiyyatlarla təmin olunurlar. Bütün bunlar, təbii ki, tədrisin keyfiyyətinin yüksəldilməsinə və səmərəsinin artırılmasına müsbət təsir göstərir.

Şərur rayonunda hər il məktəblər üçün yeni binalar inşa olunur. Cari ildə rayonun müxtəlif yaşayış məntəqələrində 5 məktəb üçün yeni bina tikilir, yaxud yenidən qurulur. Oğlanqala kənd tam orta məktəbinə də quruculuq tədbirlərindən pay düşüb. “ARTAY” LTD Tikinti Şirkəti inşaatçılarının Oğlanqala kəndində əsaslı təmir-tikinti işləri apardıqları zirzəmi ilə birlikdə 3 mərtəbədən ibarət olan 468 şagird yerlik məktəbin yeni dərs ilində istifadəyə verilməsi nəzərdə tutulub.

Yaradılan şərait ötən müddət ərzində binada əsas tikinti işlərinin başa çatdırılmasına imkan verib. Belə ki, binanın dam örtüyü yenidən qurulub, qapı və pəncərələr salınıb, digər tikinti tədbirləri həyata keçirilir, məktəb binasının həyəti qaydaya salınır.

## Sığorta fəaliyyəti genişləndirilir

Muxtar respublikamızda sığorta fəaliyyətinin genişləndirilməsi və vətəndaşların sığorta xidmətləri ilə təmin olunması istiqamətində görülən işlər davam etdirilməkdədir. Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyindən aldığımız məlumata görə, ötən ilin səkkiz ayı ilə müqayisədə cari ilin müvafiq dövründə sığortahaqlarının toplanılmasında 10,3 faiz artım müşahidə olunmuşdur. Bu dövrdə muxtar respublikada daşınmaz əmlakın icbari sığortası üzrə 366 müqavilə, avtonəqliyyat vasitələri sahiblərinin mülki məsuliyyətinin icbari sığortası üzrə isə 950 müqavilə artım olmuşdur.

Bu sığorta növlərinə əlavə olaraq, hazırda muxtar respublikamızda daşınmaz əmlakın istismarı ilə bağlı mülki məsuliyyətin icbari sığortası, avtonəqliyyat vasitələrinin tam sığortası, ev əmlakı sığortası, fərdi qəza sığortası və digər sığorta növləri üzrə də fəaliyyət genişləndirilir. Əldə olunan nəticələr onu deməyə əsas verir ki, muxtar respublikada sığorta fəaliyyətinin genişlənməsi ilə vətəndaşların sığortanın faydalarından istifadə imkanları da artmaqdadır.

**Xəbərlər şöbəsi**



# Naxçıvan abidələri

*2014-cü ilin əvvəllərində Naxçıvan Muxtar Respublikasına səfərim zamanı Naxçıvan şəhərinin mərkəzində yerləşən Heydər Əliyev Muzeyi, Koroğlu və Babəkin abidələri, eləcə də Zaviyə-Mədrəsə binasına baş çəkdim.*

Heydər Əliyev Muzeyi 1999-cu il mayın 10-da fəaliyyətə başlamışdır. Bu muzeydə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin uşaqlıq illəri, gənclik dövrü və ailəsi ilə bağlı maraqlı eksponatlar vardır. Muzeyin əsas toplusunda rəsm əsərləri, dövlət sənədləri və görkəmli siyasətçi Heydər Əliyev tərəfindən imzalanmış sərəncamlar, müxtəlif məktublar yer alır. Muzeydə Türkiyə və İran İslam Respublikası ilə imzalanmış müqavilələrin əsas nüsxəsini görmək heyranedicidir. Burada 1991-1993-cü illərdə Azərbaycan vətəndaşları tərəfindən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsində çalışmış ümummilli lider Heydər Əliyevə ünvanlanmış məktub və müraciətlərdən ibarət sənədlər toplusu da vardır. Həmçinin muzeydə Heydər Əliyev tərəfindən gündəlik istifadə edilmiş ofis ləvazimatları və digər şəxsi əşyalar da saxlanılır. Muzeyin əsas zalının divarından asılmış ulu öndər Heydər Əliyevin hərbi formada olan rəsminin əks olunduğu xalça parlaq rəngləri ilə göz oxşayır.

Bu yaddaqalan səfərdə mənimlə birlikdə olan, 2003-2005-ci illərdə Peru Respublikasının xarici işlər naziri işləmiş Manuel Rodriguez Cuadrosanın sözlərinə görə, Heydər Əliyevin həyatını və siyasi fəaliyyətini əhatə edən eksponatların saxlanıldığı muzey mühüm bir memarlıq abidəsidir. Bu muzeyin qarşısında ucaldılmış abidə isə Azərbaycanın incəsənət və heykəltəraşlıq məktəbinin kamilliyini əks etdirir. Muzeyin ekspozisiyasında 3200-dən artıq eksponat nümayiş etdirilir. Burada yerləşən kitabxanada ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən çoxlu sayda jurnal, albom və kitablar mövcuddur.

R.Cuadrosa ilə birlikdə ziyarət etdiyimiz ecazkar heykəltəraşlıq nümunəsi olan və 1988-ci ildə inşa edilmiş Koroğlu abidəsi Naxçıvan şəhərinin Əziz Əliyev küçəsində yerləşir. Bu heykəl bir daha Naxçıvan əhalisinin mistik mədəniyyətinin heykəltəraşlıq, rəssamlıq və xalçaçılığın bədii üslubu ilə köklü bağlılığını nümayiş etdirir.

Naxçıvanda 1998-ci ildən Xalça Muzeyi də fəaliyyət göstərir. Muzey 2010-cu il martın 19-da yeni binaya köçürülmüşdür. İl ərzində on mindən artıq ziyarətçi qəbul edən muzeyin fondunda 3300-ə yaxın eksponat var. Ekspozisiyada xovlu-xovsuz kilim, sumax, vərni, şəddə, palaz və cecim xalça növləri daxil olmaqla, 210 xalça nümayiş etdirilir. Ziyarətçilər həmçinin burada məfrəş, heybə, çanta, torba, xurcun və örkən kimi xalçaçılıq nümunələri də görə bilərlər. Muzeydə XVIII və XIX əsrlərə aid Gəncə-Qazax, Quba-Şirvan, Qarabağ, Təbriz və Naxçıvan xalçaçılıq məktəbinin nümunələri nümayiş etdirilir. Burada ev əşyaları, mis qablar, saxsı və çini məmulatları və qədim milli geyimləri də görmək olar.




Xalq qəhrəmanı Babəkin abidəsi dəmiryol vağzalının qarşısında, Əliqulu Qəmküsar küçəsi və Əlincə məhəlləsinin kəsişməsində yerləşir. 1989-cu ildən bu ərazi Babək meydanı adlanır. Bu meydanda həmçinin dəmir yolu işçiləri və sakinlər üçün park və digər məişət, iaşə və kommersiya xidmət müəssisələri fəaliyyət göstərir. Latın Amerikası və Avropanın digər görkəmli nümayəndələri ilə Babəkin şərəfinə ucaldılmış abidəni ziyarət zamanı biz Naxçıvan məktəbinin heykəltəraşlıq xüsusiyyətlərini heyranlıqla müşahidə etdik.

Nahar yeməyində Babək rayonunun Şəkərabad kəndində yerləşən Nəqşicahan restoranında olduq. Nəqşicahan restoranı Naxçıvançayın sahilində yerləşir. Restoranın 200 və 140 nəfərlik iki böyük zalı vardır. Nəqşicahan restoranı Naxçıvan mətbəxinə aid milli yeməklərlə tanınır. Burada bizə "soğan dolması" (bu soğan Kəngərli rayonunun Qarabağlar kəndində yetişdirilir) "arzuman küftəsi" (ət, qurudulmuş ərik, gavalı, qoz ləpəsi, soğan və keşniş ilə hazırlanır), tərəvəz, toyuq və mal ətləri ilə hazırlanmış milli yeməklər təqdim etdilər.

Növbəti gün biz Naxçıvan şəhərindəki tarixi abidə olan Zaviyə-Mədrəsə binasını ziyarət etdik. Bina XVII-XVIII əsrlər Naxçıvan memarlıq məktəbinin zəngin ənənələrini numayiş etdirir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun rəhbərliyi ilə bu bina Azərbaycan memarlıq və inşaat mühəndisliyi üslubunda əsaslı təmir edilmişdir.

Sonra biz 1982-ci ildə yaradılmış Naxçıvan Dövlət Rəsm Qalereyasında da olduq. Beynəlxalq sənətşünasların fikrincə qlobal əhəmiyyətə malik olan bu qalereyada Azərbaycan Respublikasının görkəmli rəssamlarının əsərləri qorunur və nümayiş etdirilir. Burada Azərbaycanın realist rəssamlıq məktəbinin banisi Bəhruz Kəngərlinin 400-dən artıq rəsm, portret və qrafik işləri sərgilənməkdədir. Səfir R.Cuadrosaya görə naxçıvanlı rəssam Şamil Qazıyevin ekspozisiyadakı əsərləri Azərbaycanın təbii gözəlliyini, mədəniyyətini, adət-ənənələrini, Naxçıvan əhalisinin sosial həyat tərzini əks etdirdiyi üçün xüsusi əhəmiyyətə malikdir. Muzeydə həmçinin Mikayıl Abdullayev, Maral Rəhmanzadə, Hüseynqulu Əliyev, Sabir Qədimov, Səyyad Bayramov, Ülviyyə Həmzəyeva və digər dünya şöhrətli Azərbaycan və Naxçıvan rəssamlarının əsərləri də nümayiş etdirilir.

Mədəniyyət və strateji turizm layihələrinə Naxçıvanda xüsusi diqqət yetirilir. Son illər Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun diqqət və qayğısı nəticəsində bu sahədə qazanılan möhtəşəm tərəqqi heyrətamizdir.

Naxçıvan həmişə turistləri cəlb edən bir yer olmuşdur. Bura səfər edənlər yenidən bölgəyə qayıdaraq təbiətin gözəlliyi və əsrlərlə tarixi olan Naxçıvan memarlıq ənənələrini görmək istəyirlər. Çünki Naxçıvan Avroasiyanın kəsişməsində yerləşən mədəniyyət və bədii incəsənətin beşiyi olan bir diyardır.

**Peter TASE**
***31.08.2015***
***Amerika Birləşmiş Ştatlarının "Foreign Policy News" qəzeti***

# Xarici ölkə vətəndaşları Naxçıvandan xoş təəssüratlarla ayrılırlar



Naxçıvanın zəngin tarixi-mədəni irsi, təbiəti, turizm potensialı, müasir inkişafı və mövcud sabitlik xarici ölkə vətəndaşlarının diqqətini cəlb edir, muxtar respublikaya turist axını ilbəil artır. İlin hansı fəslində olmasından asılı olmayaraq, Naxçıvana səfər edən turistlər buradan xoş təəssüratlarla ayrılır, heyranlıqlarını gizlədə bilmirlər. Bu günlərdə Böyük Britaniya vətəndaşları Kolin Lanqford və Mariya Nelson Lanqford Naxçıvan Muxtar Respublikasına səfər etmişlər. Onlar ölkələrinə qayıtdıqdan sonra qəzetimizə məktub göndərərək öz təəssüratlarını bölüşüblər.

Qonaqlar məktubda yazırlar: "Biz bu yaxınlarda Naxçıvandan səfərdən qayıtmışıq. Naxçıvanda turistlərin səfəri üçün çox maraqlı yerlər vardır. Buradakı qarpız bostanlarının, səhra ərazilərin və dağların inanılmaz forma və rəngi heyranedicidir. Naxçıvan dünyanın o hissəsidir ki, insanları ruhlandırır və onlarda gözəl xatirələr yaradır. İstəyirəm biləsiniz ki, bizim Naxçıvan səfərimiz çox xoş təcrübə idi. Bu əraziyə bizim səfərimizi yaddaqalan edən Naxçıvan əhalisinə, xüsusilə Xalça Muzeyindəki xanımlara və restoranda bizə dadlı mərcimək supu təklif edən heyətə təşəkkür edirik.

Mən həmçinin Ordubad məscidi, tarix muzeyi və Qarabağlar kəndində olan Quti xatın türbəsinin işçilərinə də öz minnətdarlığımı bildirirəm.

İcazə verin bizim bələdçimiz Həsəni də yaddan çıxarmayaq. Onun Naxçıvanın tarixi və qədim yerləri barədə geniş məlumatı var və onunla birlikdə olmaq bizim üçün çox xoş idi.

Naxçıvan Azərbaycanın tacıdır".

*Naxçıvan Muxtar Respublikasında təhsilin inkişafı həyata keçirilən dövlət siyasətinin prioritet istiqamətlərindəndir. Bu sahədə yaradılan şərait, aparılan quruculuq işləri təhsil infrastrukturunu tamamilə müasirləşdirmişdir.*

# Muxtar respublikamızdan ali məktəblərə qəbul olunanların 72 faizi Naxçıvandakı ali təhsil müəssisələrini seçmişdir

Göstərilən dövlət qayğısı nəticəsində təhsildə keyfiyyət göstəriciləri artmışdır ki, bu da özünü ali təhsil almaq istəyənlərin ildən-ilə sayının çoxalmasında bir daha göstərir. Təbii ki, əldə olunan nailiyyətlər muxtar respublikadakı ali təhsil müəssisələrinin fəaliyyətinə də təsir göstərmiş, bu təhsil ocaqlarının maddi-texniki bazası yenilənmiş, ixtisaslı kadrların hazırlığına diqqət artırılmışdır. Bunun nəticəsidir ki, ötən tədris ilində olduğu kimi, 2014-2015-ci tədris ilində də məzunlar ixtisas seçimi zamanı muxtar respublikada fəaliyyət göstərən ali təhsil müəssisələrinə daha çox üstünlük vermişlər.

Qeyd edək ki, muxtar respublikada 2015-ci ildə məktəbi bitirən 3331 məzundan 2638-i ali məktəblərə qəbul üçün sənəd vermiş, onlardan 1582-si tələbə adını qazanmışdır. Tələbə adını qazanan 1137 nəfər, yaxud qəbul olanların 72 faizi Naxçıvan Muxtar Respublikasında yerləşən ali təhsil müəssisələrini seçmişdir.

**Xəbərlər şöbəsi**

# Yeni fənn kurikulumlarının tətbiqinə həsr olunan seminar-treninq

***Azərbaycan Respublikasının təhsil sistemində aparılan məqsədyönlü islahatlar onun məzmunu, strukturu və idarəolunması kimi mühüm məsələləri özündə ehtiva etməklə sistemli şəkildə həyata keçirilməkdədir. Bu islahatın tərkib hissələrindən biri də ümumtəhsil məktəblərində fənn kurikulumlarının tətbiqidir.***

Ötən illərin təcrübəsi göstərdi ki, Naxçıvan Muxtar Respublikasında, eləcə də Babək rayonunda müəllim hazırlığında əsaslı keyfiyyət dəyişikliyi həyata keçirilib. Yeni proqramların (kurikulumların) tələb etdiyi şəkildə şagirdlərin intellektual fəallığına əsaslanan müasir dərsləri təşkil edəcək müəllimlərin hazırlanması məqsədilə müəllimlər ilə bir neçə mərhələdə treninqlər keçirilib. Aparılan monitorinqlərin təhlili göstərib ki, ənənəvi təlim metodlarına yiyələnmiş müəllimlər yeni məzmunu şagirdlərə mənimsətməkdə çətinlik çəkmirlər. Bu isə, ilk növbədə, təlimin keyfiyyətinə əsaslı təsir göstərib.

Bu fikirlər Babək rayonunda ümumtəhsil məktəblərinin VIII siniflərində yeni fənn kurikulumlarının tətbiqinə həsr olunan seminar-treninqdə səsləndirilib.

2015-2016- cı tədris ilinə hazırlıqla əlaqədar keçirilən seminar-treninqi giriş sözü ilə rayon Təhsil Şöbəsinin müdiri Kamil Kazımov açaraq yeni tədris ilində Təhsil Şöbəsi tərəfindən həyata keçiriləcək tədbirlər, məktəb direktorları qarşısında duran vəzifələr, yeni fənn kurikulumlarının tətbiqinin səmərəli nəticələnməsi üçün görüləcək işlər haqda danışıb.

Sonra rayonun ümumtəhsil məktəblərində kurikulumla əlaqədar görülən işlər, qarşıda duran vəzifələrlə bağlı rayon Təhsil Şöbəsinin metodkabinə müdiri Nicat Fətullayev məruzə edib.

Məruzəçi bildirib ki, bu tədris ilindən VIII siniflərdə kurikulum proqramı ilə tədrisə başlanacaq. Bu məqsədlə Təhsil Şöbəsi tərəfindən VIII siniflərdə dərs aparacaq müəllimlər üçün treninqlər təşkil edilir.

Qeyd edilib ki, artıq bir neçə ildir, təhsil sisteminin müxtəlif istiqamətləri üzrə ciddi islahatlar həyata keçirilir. Təhsilin strukturu, məzmunu, kadr təminatı, informasiya, tədris və elmi-metodik təminatı, idarə olunması, maddi-texniki bazası sahəsində köklü dəyişikliklər öz bəhrələrini verməkdədir. Sadalanan istiqamətlər təhsilin ayrı-ayrı sahələri hesab edilsə də, əslində, onlar bir-biri ilə üzvi şəkildə bağlı, sıx əlaqəlidirlər. Təhsilin məzmununun daşıyıcısı olan, cəmiyyətin ehtiyac və maraqlarından çıxış edən, eləcə də milli və bəşəri dəyərlər, tələbyönümlülük, şəxsiyyətyönümlülük, nəticəyönümlülük, inkişafyönümlülük və inteqrativlik prinsiplərinə əsaslanan fənn kurikulumları ən yüksək səviyyədə hazırlansa belə, onun reallaşdırılması üçün uyğun maddi-texniki baza, kifayət qədər hazırlıqlı pedaqoji kadr potensialı və ya müvafiq tələblərə cavab verən resurslar: informasiya mənbələri, tədris və elmi-metodik vəsaitlər, eləcə də tədqiqatlara əsaslanan idarəetmə mövcud olmadan, həmin kurikulumun uğurlu tətbiqi mümkün deyil. Bu səbəbdən son illərdə muxtar respublikada, eləcə də Babək rayonunda təhsil sahəsində islahatların müvəffəqiyyətlə həyata keçirilməsi üçün adıçəkilən istiqamətlər üzrə kompleks işlər aparılır. Babək Rayon Təhsil Şöbəsinin əməkdaşları rayonun ümumtəhsil məktəblərində kurikulum proqramı ilə aparılan tədrisə diqqətlə yanaşır, yeni təlim metodlarının istifadəsi və onların tətbiqinin reallaşdırılmasına köməklik edir, mütəmadi olaraq məktəblərdə olur, müəllimlərin yeni tədris sistemi ilə dərsaparma keyfiyyətini nəzarətdə saxlayırlar. Ötən il Yarımca, Hacıvar, Qahab, Məzrə kənd tam orta məktəblərində yeni tədrisə başlayan VII siniflərdə Azərbaycan dili fənninin tədrisinin keyfiyyətini yoxlamaq məqsədilə Təhsil Şöbəsinin metodistləri dərslərdə iştirak ediblər və tədris prosesinin təşkilinə lazımi dəstəyi göstəriblər. Digər fənlərin də müasir metodlarla tədrisi ilboyu metodistlər tərəfindən yoxlanılıb, dərsin keyfiyyətinin yüksək səviyyəyə çatdırılmasına nail olunub.



Seminar-treninqdə rayon Təhsil Şöbəsinin əməkdaşlarından Həsən Zeynalovun, Məmməd Bayramovun çıxışları olub.

Babək Rayon İcra Hakimiyyəti başçısının müavini Nailə Vəliyeva rayonda təhsilin inkişafı istiqamətində görülən işlərdən danışıb.

Tədbirə Babək Rayon Təhsil Şöbəsinin müdiri Kamil Kazımov yekun vurub.

**Səbuhi HÜSEYNOV**

## 40-45 yaşlı əhalinin 17 min 511 nəfəri profilaktik tibbi müayinədən keçirilib

***Muxtar respublikada 40-45 yaşlı əhalinin kütləvi dispanserizasiyası davam etdirilir. Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin tədbirlər planına uyğun olaraq, bu işə aprel ayının əvvəllərindən start verilmiş, son beş ay ərzində 17 min 511 nəfər profilaktik tibbi müayinədən keçirilmiş, 1647 nəfər dispanser qeydiyyatına alınmışdır. Təkcə avqust ayında isə 4 min 209 müayinə aparılmış, 387 nəfər müxtəlif xəstəliklərə görə dispanser qeydiyyatına götürülmüşdür.***

Məlum olduğu kimi, dispanserizasiya əhalinin sağlamlıq vəziyyətinin qorunmasında səmərəli bir üsul olaraq hazırda bütün dünyada tətbiq edilir. Profilaktik tədbirlər düzgün həyata keçirildikdə xəstəliklərin vaxtında aşkar olunması, sağalması asanlaşır, ağırlaşmaların qarşısı alınır, insanların əmək qabiliyyətləri qorunub saxlanılır, əlillik azalır. Bu məqsədlə 2013-cü ildə muxtar respublikada 20-25 yaşlıların kütləvi profilaktik müayinəsi həyata keçirilmişdir. Cari ildə 40 yaşlıların dispanserizasiyası həmin tədbirin davamı kimi aparılır. Çünki son illər 40-45 yaşlı insanlarda ürəyin işemik xəstəlikləri, hipertoniya, şəkərli diabet, onkoloji və digər xəstəliklərin yaranma riski artdığından onlar arasında profilaktik müayinə tədbirlərinin aparılması xüsusi əhəmiyyət kəsb edir.

40-45 yaşlıların dispanserizasiyası məqsədilə iyul ayında 8 ədəd xolesterin ölçmə cihazı 8 min ədəd striptlə (ekspres müayinə vasitəsi) birgə alınaraq Akademik Zərifə Əliyeva adına Naxçıvan Şəhər Poliklinikasına və rayon mərkəzi xəstəxanalarına paylanmış, istifadə qaydası öyrədilmişdir. Artıq ötən iki ay ərzində 1767 nəfər xolesterin müayinəsinə cəlb edilmişdir.

Hazırda 40-45 yaşlı əhalinin kütləvi profilaktik tibbi müayinəsi Akademik Zərifə Əliyeva adına Naxçıvan Şəhər Poliklinikasında və rayon mərkəzi xəstəxanalarında tərtib edilmiş iş qrafiki əsasında aparılır. Kütləvi profilaktik tibbi müayinələr terapevt, cərrah, ginekoloq, stomatoloq, oftalmoloqlar tərəfindən həyata keçirilir. Ehtiyac olan hallarda xəstələrə yüksəkixtisaslı həkimlərin, o cümlədən nevropatoloq, psixiatr, endokrinoloq, uroloq, ftiziatr, kardioloq və başqalarının konsultasiyası və laborator-diaqnostik müayinələri təşkil edilir. Xəstəliyə şübhəli bilinənlər dərin yoxlamalar üçün qeydiyyata alınır, onların müalicə-profilaktika tədbirləri müəyyənləşdirilir, müalicəyə ehtiyacı olan xəstələrin stasionar müalicəsinə göstəriş verilir.

Dispanserizasiya tədbirləri ilin sonunadək başa catdırılacaq və müayinələrin nəticələri Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyində təhlil ediləcəkdir.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

Yeni nəşrlər

## "Qədim yurdun möcüzəli təbiəti və insan zəkası" kitabı haqqında bir neçə söz




*Naxçıvan hər zaman tədqiqatçıların diqqət mərkəzində olub. Bunun bir səbəbi qədim diyarın ulu tarixi keçmişi ilə bağlıdırsa, digər səbəbi əhəmiyyətli coğrafi mövqedə yerləşməsi və zəngin sərvətləri ilə əlaqəlidir. Yerüstü və yeraltı sərvətləri ilə seçilən bu qədim Azərbaycan diyarı hər zaman təbiəti, münbit torpaqları, müalicəvi və qida əhəmiyyətli bitki örtüyü ilə seçilib.*

Naxçıvanın dadlı meyvələri, minbir dərdin dərmanı olan çöl bitkiləri hələ orta əsrlərdə bura səfər etmiş bir çox səyyahların diqqətini cəlb edib. Bu bioloji zənginlik əsrlər keçsə də, azalmayıb, burada yaşayan insanların məişətində istifadə olunub, onların sağlam qidalanmasında əhəmiyyətli rol oynayıb. Bir sözlə, muxtar respublikanın bitki örtüyündə mədəni və yabanı şəkildə mövcud olan meyvə, giləmeyvə, müalicəvi dərman bitkilərinə həmişə maraq olub. Buna görə də Naxçıvanın bu təbii qida məhsulları haqqında elmi biliklərə hər zaman ehtiyac duymuşuq. Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin şöbə müdiri Əsgər Həsənovun bu yaxınlarda "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi tərəfindən nəşr olunmuş "Qədim yurdun möcüzəli təbiəti və insan zəkası" adlı kitabı da bu baxımdan təqdirəlayiqdir. Bunu kitaba "Ön söz" yazmış Azərbaycan Jurnalistlər Birliyinin üzvü, "Şərq qapısı" qəzetinin məsul katibi Muxtar Məmmədov belə xarakterizə edir: "Muxtar respublikanın sərhəd bölgəsi Sədərək rayonundan tutmuş dağlar qoynunda yerləşən Şahbuzadək, bağlar diyarı Ordubaddan üzü digər rayonlarımıza qədər qarış-qarış gəzən, müxtəlif müalicəvi əhəmiyyətli meyvə və bitki nümunələrini tədqiq etməkdən yorulmayan Əsgər Həsənov bu işdən xüsusi zövq alır. Yaşlı və orta nəsil yaxşı xatırlayır ki, sovet dönəmində "türkəçarə" deyilən müalicə növünə qadağa qoyulmuşdu. Türkəçarədən gizlincə istifadə olunurdu. Bu müalicə növü bir sıra üstünlüklərinə görə əczaxanalarda hazırlanmış kimyəvi dərmanlardan çox fayda verirdi. Bu gün Əsgər Həsənovun sizə təqdim olunan bu kitabında xeyli məsləhətlərlə tanış olacaqsınız".

Onu qeyd etmək lazımdır ki, Əsgər Həsənov hər zaman təbiətə, onun yaşıl ehtiyatlarına xüsusi diqqətlə yanaşan insandır. Bəlkə də, buna görədir ki, hər bir ağaca, bitkiyə sevgi onun xarakterinə yansıyıb. Adıçəkilən kitabın ərsəyə gəlməsini də bu baxımdan xarakterizə etmək, məncə, daha düzgün olardı. Kitabda Naxçıvan Muxtar Respublikasında yetişən müxtəlif meyvə sortları, bitkilər haqqında ətraflı məlumat verilir, onların botaniki xüsusiyyətləri, gündəlik məişətdə və təbabətdə istifadə qaydaları ilə bağlı məsləhətlər verilir. Eyni zamanda badam, əncir, firəng üzümü, heyva kimi ağacların çoxaldılması, onlarda ziyanvericilərə qarşı mübarizə tədbirlərinin aparılması metodlarından bəhs olunur. Muxtar respublika ərazisində yayılmış müalicəvi təsirli bitkilərin yayılma arealı, onların təbabətdə istifadə qaydaları haqqında verilmiş tövsiyələr də hər kəs üçün maraqlı ola bilər. "Qədim yurdun möcüzəli təbiəti və insan zəkası" kitabı qədim meyvəçilik diyarı olan Naxçıvanda meyvə bağlarının salınması, ağacların generativ üsulla çoxaldılması, isti yay günlərində yaşıllıqlara necə qulluq edilməsi, bitkilərin qışlama şəraitinin yaxşılaşdırılması üsulları ilə bağlı mütəxəssis fikirləri ilə diqqəti çəkir. Kitab meyvəçiliklə məşğul olan, muxtar respublikada yayılmış müxtəlif bitki növlərinin xüsusiyyətləri ilə tanış olmaq istəyən hər kəs üçün qiymətli bir mənbədir.

**✍ Səbuhi HƏSƏNOV**

## Naxçıvan Muxtar Respublikasının Dövlət Energetika Agentliyi üzrə 2015-ci ilin avqust ayında verilən elektrik enerjisinin miqdarı, elektrik enerjisi satışından toplanan vəsait və ödənilmə faizi barədə məlumat

| S/№ | Şəhər və rayonlar | Verilən elektrik enerjisinin miqdarı (min kvt/saat) | Elektrik enerjisinin dəyəri (min manat) | Toplanan vəsait (min manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Ordubad rayonu | 1210 | 72,6 | 73,0 | 100,6 |
| 2. | Şahbuz rayonu | 374 | 22,4 | 22,5 | 100,4 |
| 3. | Kəngərli rayonu | 660 | 39,6 | 39,7 | 100,3 |
| 4. | Culfa rayonu | 1583 | 95,0 | 95,2 | 100,2 |
| 5. | Naxçıvan şəhəri | 3810 | 228,6 | 228,6 | 100,0 |
| 6. | Şərur rayonu | 2000 | 120,0 | 120,0 | 100,0 |
| 7. | Babək rayonu | 2166 | 130,0 | 130,0 | 100,0 |
| 8. | Sədərək rayonu | 300 | 18,0 | 18,0 | 100,0 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 33775 | 2026,5 | 2026,1 | 100,0 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **45878** | **2752,7** | **2753,1** | **100,0** |

**Qeyd:** Avqust ayında texniki itki nəzərə alınmaqla daxil olan 45 milyon 878 min kilovat-saat elektrik enerjisinin dəyəri 2 milyon 752 min 700 manat olmuş, cəmi 2 milyon 753 min 100 manat vəsait toplanmışdır ki, bu da istifadə olunan enerjinin dəyərinin 100,0 faizini təşkil edir.

***Azərbaycan idmanı bu gün dünya arenasında özünəməxsus yerə sahibdir. Dövlət başçısı cənab İlham Əliyevin diqqət və qayğısı sayəsində idman böyük bir inkişaf yolundadır. Ölkə Prezidenti çıxışlarının birində idmanın ölkəmizdə sürətlə inkişaf etdiyini bildirərək deyib: "Mən qətiyyətlə deyərdim ki, dünyanın heç bir ölkəsində bizim dövlətimiz qədər idmana qayğı göstərilmir. Bunun da bariz nümunəsidir ki, son illər istər olimpiadalarda, istərsə də müxtəlif turnirlərdə yüksək nəticələr əldə olunur. Son illər idmançılarımız respublikamızı beynəlxalq arenalarda layiqincə təmsil edirlər".***

## Muxtar respublikada voleybolun inkişafı üçün görülən işlər bəhrələrini verir



Bu gün Azərbaycanda həyata keçirilən idman siyasəti Naxçıvan Muxtar Respublikasında da uğurla davam etdirilir. Burada müxtəlif idman federasiyaları, eləcə də Voleybol Federasiyası yaradılıb və bu idmanın kütləviləşməsi üçün məqsədyönlü işlər görülüb. Hazırda voleybol muxtar respublikada kütləvi hal alıb, gənclər və yeniyetmələrin bu sahəyə marağı artıb.

Xatırladaq ki, voleybol hərəsi 6 oyunçudan ibarət olan iki komanda arasında topla oynanılan idman növüdür. 1964-cü ildən Yay Olimpiya Oyunlarının proqramına salınıb. Oyunun məqsədi topu tor üzərindən aşırıb rəqib komandanın meydançasında yerə dəyməsinə nail olmaq və xal qazanmaqdır. Populyarlıq dərəcəsinə görə kollektiv idman növlərindən futbol və basketboldan sonra voleybol həndbol, buz xokkeyi, reqbi kimi məşhur idman növlərindən daha çox auditoriyaya malikdir.

Muxtar respublikada bu idman növünün inkişafına xüsusi diqqət yetirilir. Təsadüfi deyil ki, 2003-cü ildə ilk dəfə voleybol üzrə Azərbaycan çempionatının kişilərdən ibarət zona yarışı Naxçıvan şəhərində keçirilib. Həmin vaxtdan etibarən mütəmadi olaraq voleybol yarışları təşkil edən Naxçıvan Muxtar Respublikası Voleybol Federasiyası yeniyetmə və gənclərin bu sahəyə axınının da əsasını qoyub. Cari ildə federasiya işini turnirlər, yarışlar keçirməklə davam etdirməkdədir. Voleybol Federasiyasının sədr müavini Aydın Mirzəyev söhbət zamanı cari ilin ilk 8 ayında görülən işlər barədə məlumat verdi: "Federasiyamızın əsas məqsədi muxtar respublikada voleybolun inkişafına təkan vermək, istedadlı gəncləri yetişdirmək və onları Azərbaycan idmanına bəxş etməkdir. Bu yöndə artıq bir çox işlər görülüb. Cari ildə Gənclər və İdman Nazirliyi ilə birlikdə bir çox tədbirlər həyata keçirmişik. Fevral ayında Xocalı soyqırımının 23-cü ildönümünə həsr olunmuş ali və orta ixtisas təhsili müəssisələrinin oğlan tələbələri arasında voleybol üzrə Naxçıvan şəhər birinciliyi təşkil edilib. Birincilikdə 6 komandada 70 idmançı mübarizə aparıb. Şəhər birinciliyi ilə yanaşı, federasiya və nazirlik muxtar respublika birinciliyi də təşkil edir ki, bu yarışda fərqlənən idmançılar yığma komandamıza dəvət olunurlar".

Aydın Mirzəyev bildirdi ki, voleybolun inkişafında, idmançıların oyun təcrübəsinin artırılmasında yoldaşlıq görüşləri mühüm əhəmiyyət kəsb edir: "Təşkil edilən yoldaşlıq oyunlarına xüsusi diqqət ayrılır. Çünki bu oyunlarda istedadlı gənclər daha çox üzə çıxır. İlk 8 ayda bir çox belə oyunlar təşkil edilib. 5 mart – Bədən Tərbiyəsi və İdman Günü münasibətilə voleybol üzrə Babək və Ordubad rayon komandaları arasında yoldaşlıq görüşü keçirilib. İyun, həmçinin avqust aylarında İlham Əliyev adına Olimpiya-İdman Kompleksində voleybol üzrə yeniyetmə oğlanlardan (Culfa-Sədərək) və kişilərdən (Şahbuz-Ordubad) ibarət komandalar arasında oyunlar olub. Federasiya və nazirliyin birgə təşkilatçılığı ilə ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr olunmuş kişilər arasında muxtar respublika turniri təşkil edilib. Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində 2 gün davam edən turnirdə 8 komandada 96 voleybolçu çıxış edib".

Geridə qalan müddət ərzində federasiya ilə nazirliyin birgə təşkil etdiyi ən böyük turnir aprel ayına təsadüf edir. Belə ki, keçirilən açıq birincilikdə 8 komanda 2 yarımqrupda dairəvi sistem üzrə mübarizə aparıb. Üç gün davam edən və Sədərək rayon komandasının qələbəsi ilə yekunlaşan birincilikdə 100-ə yaxın voleybolçunun iştirakı təmin olunub.

Sonda Aydın Mirzəyev yaradılan şəraitə görə minnətdarlığını bildirdi: "Federasiyamıza göstərilən diqqət və qayğıya görə muxtar respublika rəhbərinə minnətdarlığımızı bildiririk. Bu idman növünün inkişafı üçün hər cür şərait yaradılıb. Qarşıdakı aylarda tədbirlər planına uyğun olaraq, bir çox turnirlər, yarışlar təşkil olunacaq ki, bu da voleybolun sürətli inkişafına töhfəsini verəcək".

**✍ Ceyhun MƏMMƏDOV**

***İtmişdir***

Naxçıvan şəhəri, V.Qasımov küçəsi, ev 5-də yaşamış İsmayılova Fatma Əli qızının adına olan 407 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

* * *

Babək rayonunun Aşağı Uzunoba kəndində yaşamış Əsgərova Fatma Məmmədvəli qızının adına verilmiş JN-181 nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

* * *

Dövlətov Sadiq Məmməd oğlunun adına olan 0200704292 nömrəli VÖEN itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Kərəm Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 681